GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY
www.qurtulush.se
qurtulush.partiyasi@gmail.com

# İran Adlandırılan Siyasi Coğrafyada Yapılacaq Olan 10. Cumhurbaşqanlığı Seçgilərinə bağlı Güney Azərbaycan Qurtuluş Partiyası'nın Bildirisi

Ulu Azərbaycan Türk Millətinin böyük bir parçasını oluşdurmaqda olan Güney Azərbaycan Türklərinin; İran adlandırılan siyasi coğrafyadaki irqçı ve şovenist Fars rejiminin təməlli asimilə etmə politikası və basqıları altında çağdışı şərtlərdə varlıq mücadələsi verdiyi artık göz ardı ediləbilməz bir gərçəkdir. Əlbəttə Güney Azərbaycan Türkləri; insanlıq ayıbı sayılan kültürəl toplu yox etmə politik basqılara və ümumiyətlə söz qonusu siyasi coğrafyada baş verən digər politik, ekonomik, kültürəl, toplumsal vs. olay və olgulara ilgisiz qalabilməz, qalması da normal və doğru sayılabilməz.

İran adlandırılan coğrafyadaki olaylar, olgular və sürəclərə ***etgin/aktif qatılım*** milli kimlik və varlığımızın sürdürülməsi açısından yaşamsal önəm daşımaqdadır. Etgin/aktif qatılım gərəkdirən olgulardan biri də sözdə uyğulanan uyduruq/qondarma seçim göstəriləridir. Genə də ayrımçılıq, etnik və kültürəl qırım politikalarına qarşı səsimizi və iradəmizi duyurmaq üçün olsa da; yaradılmış olan bu kimi fürsətləri millət olaraq yaxşı dəyərləndirməmiz gərəkməkdədir. Seçim dönəmlərində, seçim sürəcinə ***etgin qatılım***, duruma görə biçim dəyişdirəbilir. Bəzi durumlarda oy qullanmaqla (səs verməklə), bəzi durumlarda isə oy qullanmamakla (səs verməməklə) etgin qatılım sağlanabilər. İran adlandırılan siyasi coğrafyada uyğulanan seçimlərdə ***səs verib verməmənin ölçütü***, Azərbaycan Türk Millətinin ***milli mənfəətlərinin nə ölçüdə sağlanıb ya da nə ölçüdə zərərə uğrama olasılığıdır***.

Bu bağlamda İran adlandırılan siyasi coğrafyada yapılacaq olan 10. Cumhurbaşqanlığı seçimləri ilə ilgili Güney Azərbaycan Qurtuluş Partiyası'nın tutum və görüşləri aşağıda maddələr şəklində Böyük Azərbaycan Türk Millətinin bilgisi və ilgisinə sunulmaqdadır.

1. İran adlandırılan siyasi coğrafyada yapılan hər cüre uyduruq/qondarma seçim sürəclərini (şuralar, parlamento və cumhurbaşqanlığı seçimləri);

   - Güney Azərbaycan Türk Millətinin məruz qaldığı insanlığa ayqırı ayrımçılıq, etnik və kültürəl qırım politikalarının haqsızlığını və mahiyətini dünya içtimaiyətinə açıqlamaq üçün,
   - Milli kimlik bilincini geniş kütlələrə intiqal etdirib yaymaq üçün,
   - Güney Azərbaycan Türk Millətinin məruz tutulduğu çirkin və insanlıq dışı etnik və kültürəl yox etmə politikalarını çeşitli güc odaqlarına/mərkəzlərinə duyurmaq və onların ilgisini yürüdülən basqı və yox etmə sürəcinə çəkmək üçün,

bir fürsət olaraq dəyərləndirmək son dərəcə önəmli sayılmaqdadır.

2. Güney Azərbaycan'ın içində və dışında hər cürə mədəni (sosyal, siyasal, kültürəl vs.) örgütlənmələr; etginliklərini/fəaliyətlərini seçim sürəcinə odaqlı yönləndirərək öz varlıqlarını və varlıq dəyərlərini topluma intiqal etdirmək fürsətini dəyərləndirmələri son dərəcə yaşamsal önəm daşımaqdadır.

   Bununla birgə Güney Azərbaycan'da milli kimlik bilincinin artması və yayılması ilə birliktə son dərəcə önəmli olan yeni örgütlənmə və iş birliyi sürəclərinə gedilməsi açısından seçim sürəci bir fürsət olaraq dəyərləndiriləbilər. Bu örgütlənmələrin biçim və içərikləri baxımından öz varlıqlarını; var olan sistematik şərtlərdə? sürdürəbilmələri son dərəcə önəmlidir. Dolayısıyla örgütlənmə və iş birliği sürəclərinin; Güney Azərbaycan Türklərinin mənfəətlərinə xidmət etmələri açısından işləvsəl, sürdürüləbilər və gərçəkçi olmaları gərəkli qoşuldur/şərtdir.

3. Güney Azərbaycan'da umumiyətlə ulus-devlətləşmə sürəci və özəlliklə də seçim sürəclərində diqqət edilməsi gərəkən ən önəmli nöktələrdən biri də süreci bir tək anlayışın, şəxsin və grubun təkəlinə/inhisarına buraxmamasıdır. Bu kimi təkəlçiliklərin milli mənfəətlərimizə yıxıcı və

onarılması çətin olan zərərlər verəbilməsi olasılığı yüksək görünməkdədir. Görüş doqmalığına qapılmaq, şəxsiyətpərəstlik və grup təkəlçiliği milli mücadələmizə qarşı ən başda gələn təhdit unsurlarından biri sayılabilər. Bu təhditləri etgisiz qılmanın tək yolu çoxulçu demokratik anlayışı mənimsəmək və bu anlayış çərçəvəsində hərəkət etməkdir. Bu sürəcdə Azərbaycan'ın milli mənfəətləri tək bir görüşün, tək bir şəxsin və tək bir grupun timsalında görüntülənməsi böyük Azərbaycan'ı kiçik düşürməkdir. Bu üzdən Azərbaycan milliyətçi çalışanlarının hər cürə təkəlçilik və diktaya qarşı son dərəcə ayıq və önləyici olmalarında yarar vardır.

4. Güney Azərbaycan Qurtuluş Partiyası olaraq 10. Cumhurbaşqanlığı seçimlərində özlərini başqan adayı göstərmiş olan Dr. Ələmi'nin; şəxsiyətini, sosyal-siyasal qonumunu, eyləm potansiyellərini və görüşlərini bütün artı və əskikləriylə göz önündə bulundurarak milli mənfəətlərimizin doğrultusunda ortaya qoyduğu tutum və duruşlarından dolayı seçim sürəcində kəndilərinə başarılar diləyirik. Azərbaycan'ın onlara və onların da Azərbaycan'a sahib çıxmalarını umud edirik.

Qurtuluş Partiyası indiki şərtlərdə Güney Azərbaycan Türklərinin, özəlliklə də milli kimlik bilincinə sahib çevrələrin; birlik və bütünlüğünü itirməmə və Fars şovenizminə qarşı tək səs olmaları açısından Cənab Ələmi'nin adaylığından yana tavır sərgiləmələrini Azərbaycan Türk Millətinin milli mənfəətləri açısından son dərəcə önəmli bir olay olarak dəyərləndirməkdədir.

Son olaraq da xatırladılması gərəkən bir xusus; Azərbaycan Türk Millətinə karşı duyğu, düşüncə və davranışları ilə tavır almış, tutum sərgiləmiş və and içmiş Azərbaycan düşmanlarının seçim sürəclərini bahanə edib anayasal haqlardan və qeyri-Fars millətlərə qarşı yürüdülən məzalimdən bəhsedərək məzlum Azərbaycan Türk Millətindən üzsüzcəsinə oy dilənməyə haqları yoxdur.

Güney Azərbaycan Qurtuliş Partiyası
Yönətim Qurulu
2009-05-19